# IFC (Beynəlxalq Maliyyə Korporasiyası) şirkətləri Pilot Proqramında iştirak etməyə dəvət edir

Azərbaycanın səhmdar cəmiyyətlərində (SC), o cümlədən, komersiya banklarında, korporativ idarəetmə təcrübələrinin təkmilləşdirilməsi məqsədini daşıyan və İsveçrənin İqtisadi Əlaqələr üzrə Dövlət Katibliyi (SECO) tərəfindən dəstəklənən **Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan Korporativ İdarəetmə Layihəsi** (AKİL) II-ci fazası çərçivəsində Pilot Proqramı üçün ərizələrin qəbuluna başlayıbdır.

Şirkətlər və banklar, onların investisiya potensialı və maliyyə perspektivləri, islahatlara meylliliklәri, uğur qazanmaq imkanları və digər meyarlar əsasında seçiləcəkdir. Seçilmiş şirkətlər və banklar geniş proqramda iştirak edəcək və aşağıdakıları əldə edəcəklər:

- Onların korporativ idarəetmə təcrübələrinin qiymətləndirilməsi;
- Korporativ idarəetmənin, o cümlədən strukturların və şuralar, menecment və səhmdarlar arasında münasibətlərin, təkmilləşdirilməsinə dair məsləhətlər;
- Korporativ sənədləri ən yaxşı təcrübələrə uyğunlaşdırmaq üçün, onların yenidən baxılmasına köməklik;
- Şəffaf və aydın maliyyə hesabatların hazırlanmasında kömək.

Layihənin 2-ci fazasında pilot proqramında iştirak ödənişli olacaqdır. Bu dəyişiklik proqramın müəyyən özəl şirkətlərin və ya bankların faydalanmasına kömək etdiyini vurğulamaq və onların sadiqliyini təmin etmək üçün edilmişdir və ödəniş görüləcək işin həcmindən asılı olacaqdır.

Korporativ idarəetmə təcrübələrini təkmilləşdirmək marağında olan Azərbaycanın səhmdar cəmiyyətləri və bankları Pilot proqramında iştirak edə bilərlər.

**Ərizə formalarını www.ifc.org/acgp internet saytından əldə etmək olar:**
**Məlumat üçün tel: (12) 497 76 98**

**Ərizələr qəbul olunduqca, onlara həmən ardıcıllıqla baxılacaqdır.**